# Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya yaradılıb

***Azərbaycan Respublikasının Nazirlər Kabineti "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" Qərar qəbul edib.***

AZƏRTAC xəbər verir ki, qərara əsasən, 2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi məqsədilə Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya yaradılıb.

Qərara görə, Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması 2019-cu il 1 oktyabr tarixli saat 00:00 vəziyyətinə, sorğu yolu ilə aparılacaq.

Əhalinin siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədilə 2018-ci il 1-10 oktyabr tarixlərində Qəbələ rayonunda əhalinin sınaq siyahıyaalınması keçiriləcək. Əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsinə yerli icra hakimiyyəti orqanları və Dövlət Statistika Komitəsi məsuliyyət daşıyırlar. Dövlət Statistika Komitəsinin hesablamaları əsasında əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması, siyahıyaalmaya cəlb ediləcək şəxslərin əmək və xidmət haqlarının ödənilməsi və digər təşkilati məsələlərin həllini təmin etmək məqsədilə 2018-2022-ci illərin dövlət büdcəsində hər il müvafiq məbləğdə vəsait nəzərdə tutulacaq.

# Qəbələ, İsmayıllı və Şəmkir məktəbləri arasında qardaşlaşma sazişi imzalanıb

***Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu "İl boyu bilik" proqramı çərçivəsində "Qardaşlaşmış məktəblər" layihəsini davam etdirir. Bu günə qədər ölkəmizdə 47 məktəbin qoşulduğu layihəyə daha 3 məktəb əlavə olunub. Azərbaycanda 2016-cı ilin "Multikulturalizm ili" elan olunduğunu nəzərə alaraq, bu dəfə "Qardaşlaşma sazişi" müxtəlif xalqların nümayəndələrinin təhsil aldıqları məktəblər arasında imzalanıb. İmzalanma mərasimi ulu öndər Heydər Əliyevin anım günü ərəfəsində– dekabrın 10-da Şəmkir şəhərində təşkil edilib.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə gerçəkləşən "Ölkəmizi tanıyaq" layihəsinin davamı olan "Qardaşlaşmış məktəblər" layihəsi Qəbələ şəhər Nicat Atayev adına 4 nömrəli tam orta məktəbi, İsmayıllı rayonu Hacıhətəmli kənd tam orta məktəbi və Şəmkir şəhər Əhməd Cavad adına tam orta məktəbi şagirdlərinin iştirakı ilə həyata keçirilib. Məktəblilər qardaşlaşma sazişinə Şəmkir Heydər Əliyev Mərkəzində imza atıblar. İsmayıllı məktəbini hapıtlar, Qəbələ məktəbini ləzgilər, Şəmkir məktəbini Azərbaycan türkləri təmsil edib.

"Qardaşlaşmış məktəblər" layihəsi müxtəlif bölgələrdən olan məktəblilər arasında "bilik körpüsü"nün yaradılmasına, şagirdlərin intellektual səviyyəsinin yüksəldilməsinə və dünyagörüşlərinin genişləndirilməsinə, istedadlı gənclərin aşkarlanmasına şərait yaradacaq.

# Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları uğurlu elmi-tədqiqat işi aparıblar

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları cari ildə altı problem, 24 mövzu üzərində elmi-tədqiqat işi aparıblar.

AZƏRTAC xəbər verir ki, institutun alimləri tədqiqat işi ilə əlaqədar Qəbələ rayonu ərazisində eramızdan əvvəl IV minilliyin başlanğıcına aid, Qafqazın bu dövr tarixini ilk dəfə əks etdirən katakomba tipli qəbir abidəsi aşkarlayıblar. Tapıntı Azərbaycanda eramızdan əvvəl IV minilliyin birinci yarısında yayılmış Leylatəpə mədəniyyətinin dəfn adətlərinin tədqiqində yeni istiqamətdir.

# Faydalı bitkilər

***Hörmətli oxucular, qəzetimizin ötən nömrəsində balqabağın sağlamlığımıza ümumi təsiri, faydaları, mətbəxdə istifadəsi haqqında məlumat vermişdik. Bu nömrəmizdə isə uşaq qidasında faydasından, onun necə seçilməsindən, tumunun və şirəsinin insan həyatında əhəmiyyətindən söhbət açacağıq.***

## Uşaq qidasında balqabağın əhəmiyyəti

Balqabaq istənilən halda, yəni çiy və bişmiş halda uşaqlar üçün çox faydalıdır. Diyetoloqlar mədə-bağırsaqları pozulan uşaqlara onu verməyi məsləhət bilirlər. Balqabağın çiy məti bağırsağın düzgün işləməsinə kömək edir. Xüsusilə qəbizlik və köp zamanı balqabağın çiy şirəsi uşaqlara yaxşı təsir göstərir. Şirə uşağa içirdildikdən sonra, qısa vaxtda köp və ağrı keçir. Balqabaq şirəsi və bal uşaqlarda yuxu pozğunluğuna da kömək edir. Əgər uşaq narahatdırsa, yatmırsa ona belə içki içirtmək məsləhət görülür.

Qan azlığı olan uşaqların qidasında hər gün balqabaq ola bilər. Ondan şirə çəkmək, salat və ya desert hazırlana bilər. Hətta 6 aylıq körpələrə də balqabaq püresi verilə bilər.

## Balqabağın seçilməsi

Balqabağı seçərkən onu nəzərdən keçirib səthində heç bir cızıq və ya zədə olmamasına diqqət yetirilməlidir. Kəsilmiş balqabağı çox saxlamaq olmaz,



çünki, mətinin tərkibindəki şəkər və qidalı maddələr azala bilər. Qeyd edək ki, balqabaq soyuğu və birbaşa günəş şüasını sevmir və tez çürüyə bilir. Balqabaq yaxşı havalanan yerdə 10-15 dərəcə temperaturda saxlanmalıdır.

## Tumların faydası

Balqabağın tumlarının tərkibində orqanizm üçün faydalı olan yağlar (xolestrensiz), E, A, D, K vitaminləri və çox sayda makro və mikro elementlər var. Tumların tərkibində böyük miqdarda sink və dəmirin olması xüsusi dəyərləndirilir. Tumlar soyuqdəymə əleyhinə əla vasitədir. İşlədici kimi effekti var. Qurd əleyhinə güclü təsir göstərir.

## Sağlamlıqda şirəsi ən yaxşı vasitə kimi

Uzun xəstəliklərin müalicəsindən, gərgin fiziki və zehni yorğunluqdan sonra orqanizmin bərpası üçün balqabaq şirəsi ən yaxşı vasitədir. Bu şirə sidikqovucu xassəyə malikdir. Böyrək daşlarının salınması üçün təbii məlhəmdir. Ürək-damar xəstəlikləri zamanı istifadə edilməsi olduqca faydalıdır. Qan təzyiqini aşağı salır.

Əsəblərin daim gərgin olmasından, sinir sistemindən şikayətlənənlər üçün balqabaq şirəsi əvəzsiz içkidir. Artıq çəkidən yaxa qurtarır, piylənmədən xilas edir. Şəkərli diabet xəstəliyindən əziyyət çəkənlərə də bu şirə məsləhət görülür. Uşaqlarda raxitin inkişafının qarşısını alır.

Balqabaq şirəsini gün ərzində bir stəkandan artıq içmək məsləhət görülmür. Lakin onikibarmaq bağırsağın xorası, həzm sistemində kəskin problemlərin olduğu zaman balqabaq şirəsindən məhdudiyyətlə istifadə edilməsi məsləhət görülür. Müalicə məqsədilə istifadə etdikdə həkimə müraciət olunmalıdır.

**Çapa hazırlad:**
**✍ Nadir ATAKİŞİYEV.**

# Doğma ölkəmizdə

## İstehsal təyinatlı obyektlərin sayı artır

İqtisadi inkişafda kapital qoyuluşu əsas yer tutur. Cənab Prezident İlham Əliyevin dediyi kimi 2016-cı ildə ölkəmizin sənaye inkişafına, istehsal təyinatlı obyektlərin tikintisinə diqqət artırılmışdır. Cari ilin yanvar-oktyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 11 milyard 889,2 milyon manat vəsait yönəlmişdir. Bu vəsaitin 9 milyard 593,3 milyon manatı məhsul istehsalı, 1 milyard 807,8 milyon manatı xidmət obyektlərinin, 488,1 milyon manatı isə ümumi sahəsi 1373,8 min kvdratmetr olan yaşayış binalarının tikintisinə sərf edilib.

Əsas kapitalın 5 milyard 960,2 milyon manatı xarici ölkələrin və beynəlxalq təşkilatların vəsaitləridir. Həmin sərmayənin 84,9 faizi İngiltərə Türkiyə, Malaziya, İsveçirə, Rusiya, İran, ABŞ və Yaponiya kimi ölkələrin sərmayədarlarına aiddir. Ümumilikdə Bakı şəhərində və respublikanın regionlarında 20-dən çox iri istehsal təyinatlı və xidmət obyektləri, 15 ümumtəhsil məktəbi, 21 məktəbəqədər təhsil müəssisəsi tikilmişdir.

## İqtisadi sahələrdə 1,5 milyondan çox adam işləyir

Dövlət Statistika Komitəsindən verilən məlumata görə 2016-cı il yanvarın 1-dən noyabrın 1-dək ölkənin iqtisadi sektorunda muzdla çalışan işçilərin sayı 1 milyon 513,7 min nəfər olmuşdur. Onların 888,4 min nəfəri iqtisadiyyatın dövlət, 625,3 min nəfəri qeyri-dövlət sektorunda çalışır.

Muzdla işləyənlərin 22,1 faizi təhsil,19 faizi ticarət, 13,1 faizi sənaye, 8,8 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi dövlət idarəetmə, müdafiə və sosial təminat, 6,1 faizi tikinti, 4,6 faizi nəqliyyat, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və bağçılıq, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 10,7 faizi iqtisadiyyatın digər sahələrində cəmləşmişlər.

İqtisadiyyatda muzdla çalışanların orta aylıq nominal əməkhaqqı 6,9 faiz artaraq 493,8 manat olmuşdur.

## Aqrar sahə inkişafdadır

Başa çatmaqda olan il başqa sahələrdə olduğu kimi aqrar sektor üçün də uğurludur. İstər əkinçilər, istərsə heyvandarlar məhsul istehsalında nailiyyətlər qazanmışlar. İlin 11 ayında kənd təsərrüfatı məhsulunun faktiki qiymətlərlə dəyəri 5 milyard 305,2 milyon manat təşkil edib. Bu məhsulun 2 milyard 793,1 milyon manatı heyvandarlıq, 2 milyard 512,1 milyon manatı bitkiçilik məhsullarıdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bitkiçilik məhsulları istehsalı 2,1 faiz, heyvandarlıq məhsulları 2,5 faiz çoxalıb.

11 ay ərzində kənd təsərrüfatı məhsulları ümumilikdə 2,3 faiz artmışdır.